# Əbədiyaşar Əlişir Nəvai

**İsa Həbibbəyli**
AMEA-nın prezidenti, akademik
E-mail: isa.habibbeyli@science.az

Dahi özbək şairi və mütəfəkkiri Əlişir Nəvai ilk növbədə özbək ədəbiyyatının əbədiyaşar klassiki və milli iftixarıdır. Bu böyük sənətkar özbək ədəbiyyatını ümumşərq əbədiyyatı miqyasına qaldırmış, dünyada məşhurlaşdırmışdır.

Əlişir Nəvai Şərq ədəbiyyatında ilk dəfə olaraq türk dilində "Xəmsə" yaratmaq vəzifəsini yüksək ideya-bədii səviyyədə həyata keçirmişdir. Bununla o, türk dilinin zəngin poeziya dili olduğunu isbat etmişdir. Əlişir Nəvainin "Xəmsə"si ümumtürk bədii təfəkkürünün və türk dilinin möhtəşəm ədəbi abidəsidir.

Qüdrətli şair olan Əlişir Nəvai, həm də görkəmli dövlət xadimi idi. O, özbək ədəbiyyatında və ümumən türk xalqları ədəbiyyatında dövlətçilik təfəkkürü ilə şairlik istedadını üzvi surətdə birləşdirməyə nail olan böyük mütəfəkkir şəxsiyyətdir. Əlişir Nəvai mükəmməl dövlətçilik dünyagörüşünə malik olan böyük özbək şairidir.

Əlişir Nəvainin simasında zəngin şeir, sənət ənənəsi ilə dərin elmi idrak özünün möhtəşəm vəhdətini tapmışdır. O, həm özbək ədəbiyyatının görkəmli yaradıcısı və həm də türk dünyasının görkəmli və böyük elm xadimidir. Əlişir Nəvai alim təfəkkürlü böyük ədəbiyyat dühasıdır.

Şairlik Əlişir Nəvainin böyük istedadının, dərin alimlik idrakının, dövlətçilik isə siyasi düşüncəsinin parlaq təzahürüdür. Əlişir Nəvai əsl şairliklə elmi zəkanı və siyasəti üzvi surətdə birləşdirmək istedadına malik olan nadir şəxsiyyətlərdən biridir. Əlişir Nəvainin "Xəmsə"si aydın dövlətçilik təfəkkürünə, böyük şairlik istedadına və alimlik idrakına malik universal bir mütəfəkkirin bədii dühasının parlaq təzahürüdür.

Əlişir Nəvai türk-müsəlman dünyası ədəbiyyatında Nizami Gəncəvidən sonrakı və Məhəmməd Füzulidən əvvəlki dövrün ən böyük ədəbiyyat zirvəsidir.

Məlum olduğu kimi, Əlişir Nəvai böyük Azərbaycan şairi Nizami Gəncəvi sənətinə "fil qüdrətinə malik nadir söz incisi" səviyyəsində yüksək qiymət vermişdir:

*Bu meydanda sanma asandır durmaq.*
*Nizami ilə pəncə-pəncəyə vurmaq.*
*Nizamiyə pəncə uzatsa hər kəs,*
*Qırılar pəncəsi, murada yetməz.*
*Şir pəncəsi gərək şirlə edə cəng,*
*Barı şir olmasa, qoy olsun pələng.*
*Nizami bir fildir, yox bərabəri,*
*Söz incisi ondan aldı dəyəri.*

Böyük sənət dühası Nizami Gəncəvinin sənətinə Əlişir Nəvainin bəslədiyi yüksək ehtiram qardaş özbək xalqının Azərbaycan xalqına və ədəbiyyatımıza olan hörmət və etimadının ifadəsi kimi dərin minnətdarlığa layiqdir.

Ölkəmizdə özbək xalqının böyük oğlu Əlişir Nəvai həm də görkəmli Azərbaycan şairi kimi qəbul edilir. Təsadüfi deyildir ki, Azərbaycanın Xalq şairi Səməd Vurğun Əlişir Nəvainin xalqımız tərəfindən böyük Azərbaycan şairi kimi sevildiyindən dərin iftixar hissi ilə söz açmışdır.

XXI əsrdə Nizami Gəncəvi "Xəmsə"sinin Özbəkistanın Xalq şairi Camal Kamal tərəfindən özbək dilinə tərcümə olunması, eyni zamanda Əlişir Nəvai "Xəmsə"sinin Ramiz Əskərin çevirməsində Azərbaycan dilində nəşr olunması böyük ədəbi hadisədir.

Dünya Nəvaişünaslıq elminin də Özbəkistandan sonra ikinci vətəni Azərbaycandır. Azərbaycanda son bir əsrdən artıq dövr ərzində Əlişir Nəvai haqqında yazılmış elmi əsərlərdən cild-cild kitablar hazırlamaq olar. Azərbaycan alimləri dünya Nəvaişünaslığına böyük elmi töhfələr vermişdir.

Nəvaişünaslıq bu gün də Azərbaycan şərqşünaslıq elminin və müasir ədəbiyyatşünaslığın əsas qollarından biridir.

Əlişir Nəvainin zəngin və əbədiyaşar ədəbi irsi Azərbaycanla Özbəkistan arasında möhkəm və etibarlı körpüdür. Azərbaycanda özbək xalqının daha dərindən tanınmasında və sevilməsində Əlişir Nəvainin böyük payı və əvəzsiz xidmətləri vardır. Ümumiyyətlə, Əlişir Nəvainin əsərləri dünyada özbək xalqının bədii dühasının və mənəviyyatının böyük bələdçisidir.

Müstəqil Azərbaycan Respublikası ilə müasir Özbəkistanın çoxcəhətli əlaqələrinin hərtərəfli şəkildə inkişaf etdirilməsi Əlişir Nəvai ideallarının müasir dövrdəki təntənəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dostluğu və qarşılıqlı etimadı Nizami Gəncəvilərin və Əlişir Nəvailərin xalqlarımız və ölkələrimiz arasında yaratdıqları ədəbi-tarixi körpülərin XXI əsrdə dövlət səviyyəsində böyük magistrallara çıxmasının parlaq və əyani göstəricisidir. Bu gün müstəqil Azərbaycan dövləti və Özbəkistan Respublikası Nizami Gəncəvilərin və Əlişir Nəvailərin ideallarının işığında birlikdə daha böyük gələcəyə doğru inamla addımlamaqda davam edir.

Əlişir Nəvainin idealları yaşayır, o, dünyada sülhün, ədalətin, insanlığın inkişaf etdirilməsinə və möhkəmləndirilməsinə gur işıq salır.